# SUCCESSOR OF IRAVAN TEACHERS' SEMINARY - IRAVAN TURKISH PEDAGOGICAL TECHNICAL SCHOOL

**Jalal Allakhverdiyev**

Azerbaijan State University of Economics,
PhD in philology, Associate Professor
E-mail: celal14855@gmail.com
https://orcid.org/0000-0002-6030-6445

**Abstract.** In the article, the activities of the Iravan Turkish Pedagogical Technical College, which was the successor of the Iravan Teachers' Seminary, in the years 1924–1948 were involved in the research. The reasons for the establishment of this educational institution are determined, and the services of Azerbaijani intellectuals in the effective operation of the technical school are revealed. The essence of Armenian chauvinism, which hinders the effective functioning of the Technical College, has been explained. It is noted that in 1918–20, more than 300 Azerbaijani villages were destroyed by Armenian nationalists, tens of thousands of civilians were massacred, and many centers of culture and education belonging to the Azerbaijani people were destroyed. The article also found a wide scientific-pedagogical analysis of the exceptional services of the Iravan Turkish Pedagogical Technical College in the training of Azerbaijani teachers.

**Keywords:** Iravan Teachers' Seminary, Iravan Turkish Pedagogical College, Armenian chauvinism, Armenian nationalists, training of Azerbaijani teachers, the decline of Iravan's literary and cultural environment.

**To cite this article:** Allakhverdiyev J. (2022). Successor of Iravan Teachers' Seminary – Iravan Turkish Pedagogical Technical School. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp.139-151.
**Article history:** received – 02.05.2022; accepted – 20.07.2022.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ XƏLƏFİ – İRƏVAN TÜRK PEDAQOJİ TEXNİKUMU

**Cəlal Allahverdiyev**

Azərbaycan Dövlət İqtisad Universiteti,
filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: celal14855@gmail.com
https://orcid.org/0000-0002-6030-6445

**Annotasiya.** Məqalədə İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumunun 1924–1948-ci illərdəki fəaliyyəti tədqiqata cəlb olunmuşdur. Bu təhsil müəssisəsinin yaranması səbəbləri müəyyənləşdirilir, azərbaycanlı ziyalıların texnikumun səmərəli fəaliyyətindəki xidmətləri üzə çıxarılır. Texnikumun səmərəli fəaliyyətinə mane olan erməni şovinizminin mahiyyəti açıqlanmışdır. Qeyd olunur ki, 1918-1920-ci illərdə erməni millətçiləri tərəfindən azərbaycanlılara məxsus 300-dən artıq kənd yerlə yeksan edilmiş, minlərlə dinc sakin kütləvi şəkildə qətlə yetirilmişdir. Azərbaycan xalqına məxsus bir çox mədəniyyət, maarif ocaqları dağıdılmışdı. İrəvan Türk Pedaqoji Texnikumunun azərbaycanlı müəllim kadrlarının hazırlığında müstəsna xidmətləri məqalədə geniş elmi-pedaqoji təhlilini tapmışdır.

**Açar sözlər:** İrəvan Müəllimlər Seminariyası, İrəvan Türk Pedaqoji Texnikumu, erməni şovinizmi, erməni millətçiləri, azərbaycanlı müəllim kadrlarının hazırlığı, İrəvan ədəbi-mədəni mühitinin tənəzzülü.

**Məqaləyə istinad:** Allahverdiyev C. (2022). İrəvan Müəllimlər Seminariyasının xələfi – İrəvan Türk Pedaqoji Texnikumu. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 139-151.
**Məqalə tarixçəsi:** göndərilib – 02.05. 2022; qəbul edilib – 20.07. 2022.

## Giriş / Introduction

1918–1920-ci illərdə İrəvan şəhəri öz tarixinin ən gərgin və acınacaqlı dövrlərini yaşamışdır. Erməni daşnaklarının hökmranlığı dövründə törədilən kütləvi qırğın aksiyaları zamanı İrəvan şəhərinin azərbaycanlılar yaşayan məhəllələri dağıdılaraq xarabalığa çevrilmiş, 14.000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir. Erməni quldurları yalnız İrəvan şəhərində deyil, azərbaycanlılar yaşayan bütün bölgələrdə − Üçmüədzin, Zəngibasar, Ağbaba, Vedi, Qəmərli, Basarkeçər, Zəngəzur, Dərələyəz, Allahverdi və s. rayonlarda son dərəcə vəhşi üsullarla, misli görünməmiş cinayətlər törətmişdilər. Belə ki, 1918–1920-ci illərdə erməni millətçiləri tərəfindən 300-dən artıq Azərbaycan kəndi yerlə yeksan edilmiş, on minlərlə dinc sakin kütləvi şəkildə qətlə yetirilmişdir. Xalqımıza məxsus bir çox mədəniyyət, maarif ocaqları dağıdılmışdı. Bununla da ermənilər tərəfindən azərbaycanlıların kütləvi şəkildə məhv edilməsi İrəvan ədəbi-mədəni mühitinin tənəzzülə uğramasına səbəb olmuşdu. Ədəbi-mədəni mühitin görkəmli nümayəndələrinin bir qismi məhv edilmiş, bir qismi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün Türkiyə, İran, Azərbaycan, Orta Asiya dövlətlərinə və başqa ölkələrə üz tutmuşdular.

## Əsas hissə / Main part

1920-ci il, noyabr ayının 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra, başqa respublikalarda olduğu kimi, burada da məktəb və maarif probleminə münasibət dəyişərək, təhsil tarixində yeni bir mərhələ başlandı. Bolşevik rejimi 1920-ci il, noyabr ayının 29-na qədər Ermənistanda mövcud olan təhsil sistemindən imtina edərək, yeni tipli sovet təhsil sisteminin yaradılmasını ön plana çəkdi. Elə ilk gündən başlayaraq, xalq maarifinin inkişafına ciddi səy göstərildi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan 7 gün sonra Ermənistan İnqilab Komitəsi 6 dekabr, 1920-ci ildə bütün məktəblərin dövlət ixtiyarına keçməsi haqqında dekret imzaladı. Həmin dekretdə Ermənistanda yaşayan hər bir xalqa ana dilində pulsuz ibtidai təhsil almaq və təhsildə bərabər hüquqlara malik olmaq imtiyazı verilirdi.

1921-ci il, dekabr ayının 17-də Ermənistan Xalq Maarif Komissarlığının verdiyi əmrə əsasən, köhnə tipli məktəblər ləğv olunaraq, məzmunca yeni tipli sovet məktəblərinin təşkilinə başlanıldı.

Yeni tipli məktəblərin təşkili ilə əlaqədar olaraq, 1921-ci il, aprel ayının 23-də Ermənistan Xalq Maarif Komissarlığının verdiyi əmrdə göstərilirdi ki, respublikada yaşayan azərbaycanlılar öz ana dilində təhsil almalıdırlar [Adı-

gözəlov A., 2003]. Bundan başqa, xarici dillərdən birinin öyrənilməsi də məcburi hesab edilirdi.

Beləliklə, Azərbaycan məktəblərinin yeni məzmunda təşkili istiqamətində ilk addımlar atılaraq, birillik, ikiillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli ibtidai, yeddiillik, səkkizillik və tam orta məktəblər təşkil edilməyə başlandı. Sovet hakimiyyətinin ilk illərində İrəvan, Uluxanlı, Vedibasar, Ağbaba və s. bölgələrdə, kəndlərdə ilk məktəblər təşkil olunmağa başlandı. Yeni tipli məktəblər təşkil edildikdən sonra İrəvanda, eləcə də azərbaycanlılar yaşayan bütün bölgələrdə doğma dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. Qərbi Azərbaycanda 1922–1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929–1930-cu illərdə 112, 1931-ci il də isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərirdi ki, bunlardan da 45-i İrəvan qəzasında idi [Allahverdiyev C., 2010]. Azərbaycan məktəblərində şagirdlərin sayının sürətlə atrmasının əsas səbəblərindən biri də 1918–1920-ci illərdə erməni daşnaklarının zülmü nəticəsində ən qəddar üsullarla qətlə yetirilməkdən xilas olmaq üçün doğma yurdlarını tərk etmiş soydaşlarımızın bir qisminin Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra yenidən öz vətənlərinə geri dönməsi idi.

Milli dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi və idarə edilməsi, orada təhsil alan şagirdlərin sayının sürətlə artması müəllim kadrlarına olan tələbatı daha da artırırdı.

Azərbaycan məktəblərinin müəllim kadrları ilə təmin olunması üçün, 1922-ci ildə Ermənistan K(b)P MK-nın yanında yaradılmış Azsaylı xalqlar şöbəsi və onun müdiri Bala Əfəndiyev, Ermənistan Xalq Maarif Nazirliyinin nəzdində təşkil edilmiş Azlıqda qalan millətlər şurasının müdiri Mehdi Kazımovun səyi nəticəsində 1922-ci ildə İrəvanda xüsusi hazırlıq kursları təşkil edildi. Həmin illərdə müəllimlik kurslarında təhsil almış şəxslər müəllim kadrları kimi məktəblərə göndərilirdi.

Görülən bütün tədbirlərə baxmayaraq, bu hazırlıq kursları da İrəvanda milli məktəblərimizin müəllim kadrlarına olan tələbatını ödəyə bilmirdi. Məsələn, 1922/1923-cü tədris ilində Ermənistanda olan 36 Azərbaycan məktəbində 1521 şagird təhsil alırdısa, 1930/1931-ci tədris ilində Azərbaycan məktəblərinin sayı artaraq 245-ə çatmışdı. Bu məktəblərdə təhsil alanların sayı 19362 nəfər təşkil edirdi.

Azərbaycanlı ziyalılar tərəfindən ana dilli məktəblər üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması ideyası 30 yanvar, 1922-ci ildə EK (b) P MK-nın birinci qurultayında qaldırılsa da, onların tələblərinə məhəl qoyulmamışdı.

Buna baxmayaraq, Azərbaycan məktəbləri üçün müəllim çatışmazlığı problemini həll etmək məsələsi yenə də əvvəlki kimi gündəlikdə qalırdı. Azərbaycan

məktəbləri üçün pedaqoji kadrların hazırlanması məsələsi Ermənistan Kommunist Partiyasının 1923-cü il, martın 29-da keçirilən ikinci qurultayında yenidən müzakirə olunmuşdu. Qurultayda Ermənistanda maarif və məktəb sahəsində mövcud vəziyyət geniş təhlil edilərək, bir sıra mühüm qərarlar qəbul edilmişdi. Müzakirədə EK(b)P MK-nın yanında fəaliyyət göstərən Azlıqda qalan millətlər şöbəsinin müdiri Bala Əfəndiyev çıxış etmişdi, hətta qurultayda Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanması problemi ilə bağlı müvafiq qərar qəbul edilməsinə nail olunmasına baxmayaraq, yenə də məsələ öz həllini tapmamışdı. Qəbul edilmiş qərarda müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması, yeni məktəb binalarının tikilməsi, məktəbyaşlı uşaqların, xüsusilə də qızların təhsilə cəlb edilməsi və s. məsələlər də öz əksini tapmışdı. Qurultayda Ermənistanın şovinist dairələri, eləcə də Xalq Maarif Komissarı A.Mravyan Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək üçün pedaqoji kadrların Azərbaycandan dəvət olunmasını daha məqsədəuyğun hesab edirdi. Onlar Azərbaycan məktəbləri üçün İrəvanda yerli pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil müəssisəsinin yaradılması məsələsini məqsədli şəkildə, müxtəlif vasitələrlə əngəlləyirdilər. Burada bolşevik cildinə girmiş erməni daşnaklarının əsas məkrli məqsədlərindən biri azərbaycanlıların savadlanmasının, mədəni tərəqqisinin və gələcək perspektivlərinin hər vasitə ilə qarşısını almaq idi.

Əsl erməni xisləti Azərbaycan məktəblərində dərs deyən həmin müəllimlərə dözülməz şərait yaratdığı üçün onlar maddi və mənəvi sıxıntılara dözə bilməyib, Ermənistanı tərk etməyə məcbur olurdular. Hətta müəllimlər aylarla əmək haqqı, onlara verilən ərzaq normalarını belə ala bilmirdilər. Erməni şovinizminin azərbaycanlı müəllimlərə qarşı yaratdığı bu problem uzun illər bu şəkildə davam etmişdir.

Müəllim çatışmazlığı problemini, qismən də olsa, aradan qaldırmaq üçün Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında İrəvandan Bakıya pedaqoji təhsil almaq məqsədi ilə 1923-cü ildə 16, 1925-ci ildə 38, 1926-cı ildə 11, 1929-cu ildə isə 8 nəfər müxtəlif ali təhsil müəssisələrinə göndərilmişdi. Mamed Həsənov, Zəhra Abbasova, Əziz Əzizov, Tacirə Bağırova kimi gənclər Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvana qayıdaraq, maarifin inkişafına öz töhfələrini vermişdilər.

Sovet hakimiyyətinin ilk illərində İrəvanda azərbaycanlı qızlar məktəbi, yeddi illik məktəb, M.Əzizbəyov adına məktəb, Asrıyev, F.Dzerjinski və S.Şaumyan adına beynəlmiləl məktəblərdə isə Azərbaycan bölmələri fəaliyyət göstərirdi. İlk vaxtlarda milli məktəblərimizdə müəllim kadrlarına böyük tələbat olduğundan, çox vaxt İrəvan 7 illik Azərbaycan məktəbinin şagirdlərindən də müəllim kimi istifadə edirdilər. Hətta qış tətilində Zaqafqaziya Kommunist Universitetində təhsil alan azərbaycanlı tələbələr İrəvanda və yerlərdə təşkil edilmiş səyyar məktəblər-

də dərs deməyə dəvət edilirdilər.

Bütün bunlara baxmayaraq, görülən bu tədbirlər müəllim kadrlara olan tələbatı ödəyə bilmirdi. Ermənistanın şovinist dairələri Azərbaycan məktəbləri üçün pedaqoji kadrlar hazırlayan müstəqil tədris müəssisəsinin yaradılmasını istəmirdilər. Onlar Erməni Pedaqoji Texnikumunun nəzdində Azərbaycan şöbəsinin açılmasını daha məqsədəuyğun hesab edirdilər. Müəllim çatışmazlığı probleminin aradan qaldırılması işini qaydaya salmaq üçün yerli kadrlar hazırlayan təhsil müəssisəsinin yaradılmasının təxirəsalınmaz tələbat olduğunu aydın dərk edən Azsaylı xalqlar şöbəsinin müdiri Bala Əfəndiyevin, Azlıqda qalan millətlər şurasının müdiri Mehdi Kazımovun, "Zəngi" qəzetinin məsul redaktoru Mustafa Hüseynovun, İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin aparıcı simalarından olan Əkbər Rizayevin, Qulam Fərhadovun, Rza Şeyxzadənin, Miryusif Mirbabayevin, Əhməd Əhmədovun, Abbas Fərəcovun, Murtuza Muradovun və başqa qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, ciddi səyi, siyasi və milli iradəsi sayəsində Ermənistan Xalq Maarif Komissarlar Şurası İrəvan Pedaqoji texnikumunun təşkil edilməsi barədə qərar qəbul etdi. Beləliklə, 1924-cü il, oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı [Cəfərov C., Allahverdiyev C., 2017].

İrəvan Türk Pedaqoji Texnikumunun açılması sayəsində Azərbaycan məktəblərində müəllim kadrlarına olan ehtiyacın aradan qaldırılması işinin müəyyən dərəcədə qaydaya salınması istiqamətində ilk addım atıldı.

Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda məlum olur ki, Mehdi Kazımov direktor və rus dili müəllimi, Bala Əfəndiyev ictimaiyyat müəllimi, Əsgər Əsgərzadə ana dili müəllimi, Cəmil Əliyev təbiət müəllimi, Kərim Məhərrəmov isə texniki işlər üzrə köməkçi kimi fəaliyyət göstərmişlər. Texnikuma müəllim kimi İrəvanın tanınmış qadın maarifçilərindən olan Bülbül Kazımova da cəlb edilmişdi. Bülbül Kazımova texnikumda dərs deyən ilk azərbaycanlı qadın idi. Zəngin təcrübəyə malik olan pedaqoqlardan təşkil olunmuş bu fədakar kollektiv tükənməz enerji ilə fəaliyyətə başlamışdı. Bu mərhələni Mehdi Kazımovun, Cəmil Əliyevin, Əsgər Əsgərzadənin, Bülbül Kazımovanın pedaqoji fəaliyyətinin ikinci dövrü kimi xarakterizə etmək olar. Onların bu dövrdə pedaqoji fəaliyyəti istər forma, istərsə də məzmun və keyfiyyət baxımından daha məhsuldar olmuşdur.

Erməni Pedaqoji Texnikumunun binasında fəaliyyət göstərən bu maarif ocağı 30 nəfər tələbəni əhatə edən darısqal bir sinif və iki yataq otağından ibarət idi. Hətta müəllimlər otağı da yox idi. Əlavə otaqların ayrılması üçün edilən müraciətlərə heç bir müsbət cavab verilmirdi.

Məlumdur ki, hər hansı bir təhsil müəssisəsinin normal və ahəngdar fəaliyyət

göstərməsi üçün, ilk növbədə, onun ayrıca bina ilə təmin edilməsi, maddi-texniki bazasının yaradılması, tədris prosesi üçün əlverişli şəraitin olması vacib şərtdir. Yeni təşkil olunmuş İrəvan Türk Pedaqoji Texnikumunun tamamilə əlverişsiz və dözülməz bir şəraitdə fəaliyyət göstərməsi, dərslik və dərs vəsaitləri, tədris proqramları, laboratoriyalar, fənn kabinələri, yataqxana, yeməkxana ilə və lazımi avadanlıqlarla təchiz edilməməsi, sözsüz ki, bu təhsil ocağının normal fəaliyyətini əngəlləyirdi. Ermənistanın bolşevik cildinə girmiş hakimiyyət orqanları nəinki texnikumda, eləcə də Azərbaycan məktəblərində mövcud olan problemlərin və çatışmazlıqların aradan qaldırılması üçün heç bir səy göstərmirdi. Erməni şovinistlərinin bütün sahələrdə azərbaycanlılara qarşı yürütdükləri qərəzli və ayrı-seçkilik siyasəti təhsil sahəsində də özünü qabarıq şəkildə göstərirdi. Pedaqoji texnikumda ana dilində kitab, dərslik və dərs vəsaitlərinə, tədris proqramlarına və s. ləvazimatlara böyük ehtiyac olduğu halda, Ermənistan Xalq Maarif Komissarlığı bu tələbatı ödəmək istəmirdi. Demək olar ki, Ermənistanın ilk Xalq Maarif Komissarı, 1924–1926-cı illərdə isə EK(b)P MK-nın birinci katibi olmuş Aşot Hovanesyanın 1920-ci il, 17 dekabr tarixində verdiyi əmrdə təhsilin ana dilində aparılması, məktəblərin dövlət ixtiyarına keçərək pulsuz olması, yeni tipli sovet məktəblərinin zəhmətkeş balalarının üzünə açıq olması – bütün bunlar, ilk növbədə, ermənilər üçün nəzərdə tutulurdu.

Araşdırmalardan aydın olur ki, bu təhsil müəssisəsində tədris prosesi üçün heç bir əlverişli şərait olmadığına görə 1925-ci ilin sonlarına qədər texnikuma əsaslı qəbul həyata keçirilməmişdi. Texnikumda yalnız 1926-cı ilə qədər altı aylıq və bir illik kurslar fəaliyyət göstərmişdir [Cəfərov C., Allahverdiyev C., 2017]. Texnikumun nəzdində təşkil olunan, müəllimlər hazırlayan bu hazırlıq kursların da az-çox savadı olan, mollaxana və ibtidai rus məktəblərini bitirənlər müəllim kimi təkmilləşdirilərək məktəblərə göndərilirdi. 1925-ci ildə hazırlıq kursuna 25 nəfər tələbə qəbul olunmuşdu ki, onlar da 1926-cı ilin əvvəlində həmin kursu bitirdikdən sonra azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdəki məktəblərə müəllim göndərilirdilər [İbrahim və Lentroş., 1930].

Ermənistan Xalq Maarif Komissarlığı tərəfindən pedaqoji texnikumda mövcud olan problemlərin aradan qaldırılmasına, tədris vəsaitləri, kitablar və digər ləvazimatlarla təmin edilməsinə dair heç bir əməli addım atılmamış, bu ehtiyaclar uzun müddət Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən ödənilmişdir. Bu sahədə durğunluq uzun illər davam etmişdir. Hətta bəzi mənbələrdən məlum olur ki, Azsaylı xalqlar şöbəsinin müdiri Bala Əfəndiyev, texnikumun direktoru Mehdi Kazımov bu tədris ocağının normal fəaliyyət göstərməsi üçün müstəqil bina ilə təmin edilməsinə, maddi-texniki, tədris bazasının yaradılmasına, müxtəlif avadanlıqlara böyük ehtiyac olduğu barədə dəfələrlə Ermənistanın şovinist dairələri qarşısında məsələ qaldırsalar da, bu problemlər öz müsbət həllini tap-

mamışdır. Texnikumun açıldığı vaxtdan bir il keçməsinə baxmayaraq, bu təhsil ocağına əsaslı qəbulu həyata keçirmək mümkün olmamışdır.

Texnikuma ilk tələbə qəbulunun həyata keçirilməsi prosesini ləngidən əsas səbəblərdən biri də burada tədris prosesi üçün əlverişsiz və dözülməz şəraitin olması idi. Sovet Ermənistanının daşnaklardan təşkil olunan hakimiyyəti Ermənistan Pedaqoji Texnikumunu müstəqil bina ilə təmin etdiyi, hərtərəfli diqqət və qayğı göstərdiyi halda, Azərbaycan Pedaqoji Texnikumu bu qayğılardan məhrum idi. Bu ayrı-seçkilik siyasəti bir tərəfdən Ermənistanda Sovet hakimiyyətinin spesifik xüsusiyyətlərə malik olduğunu, digər tərəfdən də erməni kommunistlərinin sözdə bir, əməldə tamamilə əks prinsiplərdən çıxış etməsində özünü göstərirdi.

Görünən tərəf – "proletar beynəlmiləlçiliyi", "bolşevizm ideyalarının həyata keçirilməsi", görünməyən tərəf isə rəsmi Ermənistan rəhbərliyinin gizli surətdə həyata keçirdiyi şovinist və antitürk siyasəti idi.

Yuxarıda qeyd etdiyimiz kimi, milli maarifimizin inkişafını hər vasitə ilə əngəlləməyə çalışan erməni şovinistlərinin məkrli məqsədlərindən biri gələcəkdə İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumunun fəaliyyətinin dayandırılmasına zəmin hazırlamaqdan ibarət idi.

Onu da xüsusi qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanda milli məktəblərimizin ana dilində kitab, dərslik, dərs vəsaiti, tədris proqramları və s. ləvazimatlarla təmin edilməsinə Azərbaycan Xalq Maarif Komissarlığı yaxından kömək göstərirdi. Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və sözün əsl mənasında, fədailik edən digər ziyalılarımızın səyi nəticəsində texnikumda bəzi problemlər aradan qaldırılmış və bu təhsil müəssisəsinə ilk qəbulun həyata keçirilməsi mümkün olmuşdu. Beləliklə, texnikumun əsas kursuna ilk sənəd qəbulu 1925-ci il, oktyabr ayının 15-dən 27-dək aparılmışdır. Dövrün tələblərinə uyğun olaraq, buraya fəhlə-kəndli mənşəli gənclər qəbul olunurdu. Tələbə qəbulu Ermənistan Xalq Maarif Komissarlığının təsdiq etdiyi qaydalar əsasında həyata keçirilirdi. Təhsil müddəti isə 4 il idi [Məmmədov İ., 2002].

Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda pedaqoji heyətin, tədrisin təşkili və s. sahələrdə müəyyən irəliləyişlərin olduğu məlum olur. Qısa müddət ərzində Əşrəf Bayramov, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev kimi ziyalılar bu maarif ocağının pedaqoji heyətinə daxil olmuşdular. Qeyd etmək lazımdır ki, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyev də ilk əmək fəaliyyətinə bu texnikumda başlamışdır. O, 1926–27-ci illərdə bu təhsil ocağında kimya-biologiya fənnini tədris etmişdir.

Texnikuma azərbaycanlılar yaşayan bütün bölgələrdən tələbə qəbul edilirdi, lakin qəbulun sayı bölgələrdə yaşayan azərbaycanlı əhalinin sayına uyğun keçirilmirdi, məsələn, 1927-ci ildə texnikuma 31 nəfər əsas kursa, 112 nəfər isə altıaylıq və birillik hazırlıq kurslarına daxil olmuşdur ki, bunlardan 77 nəfəri – İrə-

van, 14 nəfəri – Üçmüədzin, 7 nəfəri – Gümrü, 4 nəfəri – Loli-Pəmbək, 5 nəfəri – Nor-Bəyazid, 9 nəfəri – Dilican, 20 nəfəri – Zəngəzur, 4 nəfəri – Dərələyəz, 3 nəfəri isə Meğri bölgəsindən idi [Xəlilov T., 2020].

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Pedaqoji Texnikumu təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda İrəvanda Azərbaycan ədəbiyyatının mədəniyyətinin, incəsənətinin inkişafı və formalaşmasında da böyük rol oynayırdı.

Texnikumun yaranmasından keçən dörd il ərzində bu tədris ocağı, əsasən, təşkilolunma prosesi keçirərək, fəaliyyətini müəyyən dərəcədə genişləndirmiş, 1928/29-cu tədris ilində tələbə qəbulu artmışdı. 1928-ci ildə texnikuma 40 nəfər tələbə qəbul olunmuşdur ki, onlardan 8 nəfəri – İrəvan, 3 nəfəri – Gumrü, 5 nəfəri – Üçmüədzin, 3 nəfəri – Lori-Pəmbək, 4 nəfəri – Dilican, 3 nəfəri – Nor-Bəya zid, 1 nəfəri – Dərələyəz, 6 nəfəri – Zəngəzur, 1 nəfəri – Megri bölgəsindən, 6 nəfəri isə uşaq evindən idi [ARBDA, Fond №31, siyahı 1, vərəq 69].

1929-cu ilin iyun ayında texnikumun ilk buraxılışı olmuşdu. 1926-cı ildə qəbul olunmuş 32 nəfər tələbədən 20 nəfəri texnikumu bitirməyə müvəffəq ola bilmişdi ki, onlardan da 18 nəfəri oğlan, 2 nəfəri isə gənc qız idi [İbrahim və Lentroş., 1930].

İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumunun ilk buraxılışı İrəvanda və bölgələrdə milli maarifimiz üçün böyük şadlıq xəbəri kimi yayılmışdı. Mənbələrdən məlum olur ki, tələbələrdən 3 nəfəri təhsil aldığı müddətdə ağır yoluxucu xəstəliyə tutularaq dünyasını dəyişmiş, 9 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etməyə məcbur olmuşdu. Beləliklə, İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumu Ermənistanda fəaliyyət göstərən Azərbaycan məktəblərinin müəllim kadrlarına olan ehtiyacını qismən də olsa, ödəməyə başlamışdır.

Texnikumda ilk buraxılış münasibəti ilə bir sıra qurumların nümayəndələrinin iştirakı ilə təntənəli yığıncaq keçirilmişdi. Yığıncaqda texnikumun direktoru Mehdi Kazımov bu tədris ocağının mövcud olduğu 5 il ərzində fəaliyyəti haqqında çıxış edərək, əldə olunmuş nailiyyətlərlə yanaşı, bir sıra nöqsanlar barədə də fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdıraraq demişdi: "Texnikumu təşkil edəndə ilk zaman burada oxumaq üçün tələbələr tapa bilmirdik. Sonra get-gedə texnikum öz adını doğrultduğu üçün indi bura daxil olmaq istəyənlərin sayı günbəgün artmaqdadır. İlk vaxtlarda texnikumun iqtisadi vəziyyətinin yaxşı olmaması, kitab və proqramların yoxluğu, peşəkar müəllimlərin olmamasına baxmayaraq, bu il bu çətinliklərin çoxu aradan qaldırılıb, müəyyən müvəffəqiyyətlər əldə edilmişdir". Mehdi Kazımov çıxışının sonunda texnikumun ilk qaranquşları olan 20 nəfər məzuna uğurlar arzulamış, sonra isə onların Azərbaycan məktəblərində pedaqoji fəaliyyətlərini mövcud dövrün tələbləri əsasında həyata keçirəcəkləri vəzifələr barədə danışmışdır.

İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumunun ilk məzunları arasında Əmir Abasquluyevin, Adil Axundovun, Nəriman Əliyevin, Paşa Makinskinin, Əbülfət İbrahimin, İmamqulu Kərimovun, Nəriman Fəxrinin, Rübabə Bağırbəyovanın, Nəsir Əliyevin, Musa Qafarovun, Əbülfət Rəhimovun, Tağı Bağırovun, Nəzər Paşayevin, Mirzə Bəşirovun və başqalarının adlarını çəkmək olar. Onu da qeyd edək ki, Rübabə Bağırbəyova pedaqoji texnikumun ilk qadın məzunu idi. Həmin məzunlar müəllim kadrlarına böyük ehtiyacın yarandığı bölgələrə göndərilirdilər.

1929-cu ildə pedaqoji texnikuma 32 nəfər qəbul olunmuşdu. Onlardan 16 nəfəri oğlan, 16 nəfəri isə qız idi. Tələbələrin 6 nəfəri – İrəvan, 3 nəfəri – Dilican, 2 nəfəri – Dərələyəz, 1 nəfəri – Meğri, 4 nəfəri – Gümrü, 3 nəfəri – Zəngəzur, 3 nəfəri – Nor-Bəyazid, 3 nəfəri – Üçmüədzin bölgəsindən, 3 nəfəri isə uşaq evinin şagirdlərindən idi [İbrahim və Lentroş., 1930].

1931-ci tədris ilində pedaqoji texnikuma tələbə qəbulunun sayının artırılmasında mühüm dönüş baş verdi. Belə ki, texnikuma tələbə qəbulunun sayı, əvvəlki illərlə müqayisədə, artaraq 60 nəfərə çatdırılmışdı. 1932-ci ildə pedaqoji texnikuma tələbə qəbulu bölgələr üzrə aşağıdakı kimi olmuşdur: 5 nəfər – İrəvan, 4 nəfər – Üçmüədzin, 2 nəfər – Qəmərli, 2 nəfər – Axta, 4 nəfər – Qara kilsə, 8 nə fər – Vedibasar, 5 nəfər – Basarkeçər, 3 nəfər – Hamamlı, 3 nəfər – Allahverdi, 8 nəfər – Ağbaba, 5 nə fər – Qafan, 5 nəfər – Sisyan, 3 nəfər – Gorus, 5 nəfər isə Dilican bölgələrindən idi [Allahverdiyev C., 2010]. Texnikuma qəbul olunmuş həmin tələbələrdən 23 nəfəri qızlar idi ki, onlardan da 3-ü İrəvan şəhərindən, 1-i Üçmüədzin, 2-si Qarakilsə, 3-ü Vedibasar, 2-si Basarkeçər, 1-i Stepanavan, 3-ü Ağbaba, 1-i Allahverdi, 2-si Qafan, 1-i Gorus, 2-si Sisyan, 2-si isə Dilican bölgələrindən idi [Cəfərov C., Allahverdiyeva C., 2017].

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, pedaqoji texnikumda əvvəlki illərdə olduğu kimi, 1932-ci tədris ilində də dərslər vaxtında başlamamışdır. Hər il dərslərin 25–30 gün gec başlamasına səbəb burada tədris prosesi üçün lazımi şəraitin olmaması idi.

Texnikumda laboratoriyalar və tədris üçün kifayət qədər zəruri dərs kitabları olmadığından dərslərdə bəzən ancaq məlumatlar öyrədilirdi. Hətta tələbələrin məskunlaşdığı yataqxanada işıq olmadığından, tələbələr dərslərə çıraq işığında hazırlaşmağa məcbur olurdular. Yuxarıda qeyd etdiyimiz kimi, tələbə və müəllimlərin yaşayış şəraiti hədsiz dərəcədə ağır olduğu kimi, dərs keçmək üçün sinif otaqları da çatışmırdı.

1932-ci ildə Bəhlul Yusifov texnikuma direktor təyin olundu. 1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyn və başqalarından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumunun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. Məm-

məd Səid Ordubadi texnikumun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Türk Pedaqoji Texnikumu bizdə böyük intibahlar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq" [Cəfərov C., Allahverdiyev C., 2017].

Ümumiyyətlə, Azərbaycanın bir çox görkəmli ziyalıları – Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Məmməd Arif, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Əbülhəsən, Mikayıl Rəfili, Vəli Xuluflu, Həmid Araslı, Süleyman Rüstəm və bir çox başqaları bu təhsil ocağının qonağı olmuşlar. Pedaqoji texnikumda belə ədəbi toplantıların, yaradıcılıq gecələrinin, elmi konfransların keçirilməsi tələbələrin şəxsi yaradıcılıq işlərinin genişlənməsinə, onların elmi-ədəbi dünyagörüşlərinin artmasına da müsbət təsir göstərirdi.

Ümumiyyətlə, İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Məktəbi 15 il ərzində Azərbaycan məktəbləri üçün 1228 nəfər müəllim hazırlamışdır ki, bunlardan 242 nəfəri qiyabi, 150 nəfəri isə birillik müəllim hazırlığı kursunun məzunları idi.

1948-ci il, noyabr ayının ortalarına kimi İrəvanda fəaliyyət göstərən İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumu yalnız tədris müəssisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə girmiş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli, tarixi bir yol keçmiş İrəvan Müəllimlər Seminariyasının davamı olan İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumu da deportasiyaya məruz qalaraq, 1948-ci ilin noyabr ayında müəllim və tələbə kollektivi ilə birlikdə Azərbaycanın Xanlar rayonuna köçürülmüşdü. 1949-cu ildə Ermənistanda 53 erməni texnikumu, 14 ali məktəb, 3 qiyabi təhsil müəssisəsi olduğu halda, İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumu İrəvanda Azərbaycan dilində pedaqoji kadrlar hazırlayan yeganə təhsil ocağı idi. Bu təhsil ocağının 24 illik fəaliyyəti dövründə Ermənistanda Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanmasında misilsiz xidmətləri olmuşdur. İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumu Azərbaycanın Xanlar rayonuna köçürülməmişdən bir ay əvvəl Ermənistanın maarif naziri 1948-ci il, 07 oktyabr tarixli, 719 №-li əmr imzalamışdır. Əmrdə yazılır: "İrəvanda Azərbaycan dilində fəaliyyət göstərən təhsil müəssisələrinin Azərbaycan SSRİ-yə köçürülməsi ilə əlaqədar olaraq, həmin təhsil müəssisələrində işləyən müəllim kontingenti 7 oktyabr, 1948-ci ildən etibarən işdən azad edilsin".

Yeri gəlmişkən onu da qeyd edək ki, köçürülmə ilə əlaqədar olaraq, 1949-cu ildə texnikuma tələbə qəbulu həyata keçirilməmişdi. İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumunda çalışan, İrəvanda Azərbaycan ədəbi-mədəni

mühitinin aparıcı nümayəndələri olan 50-yə qədər müəllim, 8 inzibati işçi, I, II, III kurslarda təhsil alan 400-ə qədər tələbə Azərbaycanın Xanlar rayonuna köçürüldü. Həmin müəllim və tələbə heyəti Xanlar Pedaqoji Texnikumunda pedaqoji fəaliyyətlərini və təhsillərini davam etdirməyə məcbur oldu. Əsgər Cəfərov Xanlar Pedaqoji Texnikumunun direktoru, Təvəkkül Kərimov tədris hissə müdiri və riyaziyyat müəllimi, Sadiq Heydərzadə biologiya, Mənzərə Nəzərəliyeva coğrafiya, Cəfər Ələkbərov hərbi, Bəhman Xudiyev dil-ədəbiyyat, Mamed Həsənov riyaziyyat, Rəziyə İsmayılova tarix, Bəşir Mamedov bədən tərbiyəsi, Tarix Şirinov tarix, Surə Fərhadova dil-ədəbiyyat, Mehdi Kazımov isə rus dili müəllimi kimi burada da pedaqoji fəaliyyətlərini ləyaqətlə davam etdirmişdilər. Araşdırmalardan məlum olur ki, 1950-ci ildən sonra texnikumun müəllimlərindən Mehdi Kazımov, Əşrəf Bayramov, Əyyub Babayev, Səkinə İsmayılova pedaqoji fəaliyyətlərini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişlər.

## Nəticə / Conclusion

İrəvanda azərbaycanlıların sayca çoxluğu buradakı yerli millətin – azərbaycanlıların tədrisin Azərbaycan dilində aparıldığı məktəblər üçün pedaqoji kadrların hazırlanması məqsədi ilə İrəvan Türk Pedaqoji Texnikumunun açılması ilə nəticələnir. Bu texnikumun sayəsində milli dilimizdə fəaliyyət göstərən təhsil ocaqları şəbəkəsinin genişləndirilməsi və onların azərbaycanlılar tərəfindən idarə edilməsi, orada təhsil alan şagirdlərin sayının sürətlə artması erməni daşnaklarını narahat edirdi. Milli maarifimizin inkişafını hər vasitə ilə əngəlləməyə çalışan erməni şovinistlərinin məkrli məqsədlərindən biri İrəvan Türk (Azərbaycan – C.A.) Pedaqoji Texnikumunun fəaliyyətinin dayandırılması idi. Onlar bu məqsədlərinə nail oldular, deportasiya bu təhsil ocağından da yan keçmədi.

1948–1953-cü illərdə azərbaycanlıların Ermənistandan – öz doğma tarixi torpaqlarından məkrli və məqsədli şəkildə köçürülmə siyasəti nəticəsində təhsillərini Xanlar Pedaqoji Məktəbində davam etdirən, sonralar Azərbaycanda elm, təhsil və s. sahələrdə öz töhfələrini vermiş professorlar Qurban Bayramov, Süleyman Məmmədov, Abbas İsmayılov, ictimai-siyasi xadim, yazıçı Qəşəm Aslanov, dosent İmamverdi Hacıyev, dosent Nəcəf Nəcəfov və başqaları bu məktəbin məzunları olmuşlar.

Ermənilərin apardığı məkrli siyasət nəticəsində 1971-ci ildə Xanlar Pedaqoji Məktəbinin də fəaliyyəti dayandırılmışdır.

**Məqalənin aktuallığı.** Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzaladığı 29 dekabr, 2021-ci il tarixli Sərəncamından irəli gələn məsələlərin həyata keçirilməsi İrəvan Müəllimlər Seminariyası ilə bağlı tədqiqat-

ların aparılmasını gündəmə gətirir. Seminariyanın xələfi olan İrəvan Pedaqoji Texnikumunun fəaliyyətinin araşdırılması, onun Azərbaycanın milli təhsil tarixindəki yeri və rolunun öyrənilməsini, tədqiq edilməsini aktuallaşdırır.

**Məqalənin elmi yeniliyi.** İrəvan Pedaqoji Texnikumunun fəaliyyət göstərdiyi illər ərzində milli təhsil tariximizə verdiyi töhfələr haqqında məlumatla birgə, erməni daşnaklarının və Rusiyanın antiazərbaycan siyasəti nəticəsində pedaqoji kollektivi ilə birlikdə deportasiyaya məruz qalması, onun köçürülməsi səbəbi kimi gizli saxlanılan məsələlərin geniş auditoriyaya çatdırılması məqalədə aşkar olunan elmi yeniliklərdən biridir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə verilən faktlar azərbaycanlıların öz tarixi torpaqlarından didərgin salınmasının sübutu olmaqla yanaşı, Azərbaycan pedaqogika tarixinin keçdiyi çətin və şərəfli yolun öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətlidir. Məqalədən müəllimlər, pedaqoji universitetlərin tələbələri, təqdiqatçılar mənbə kimi istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Adıgözəlov Ə. (2003). Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı, “Təhsil”, 92 s.
2. Allahverdiyev C. (2010). İrəvan ədəbi mühiti. Bakı, “Elm”, 250 s.
3. ARBDA, Fond № 131, siyahı 1, vərəq 69.
4. Azərbaycan tarixi. (2000). 7 clddə, 4-cü cild (XIX əsr). Bakı, “Elm”, 503 s.
5. Cəfərov C., Allahverdiyev C. (2017). İrəvanda milli maarifçilik mühiti. Bakı, “Şərq-Qərb”, 440 s.
6. Əhmədov H. (2006). Seçilmiş pedaqoji əsərləri. XII cilddə. 4-cü cild. Bakı, “Təhsil”, ABU, 580 s.
7. Xəlilov T. (2020). Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı (XIX əsrin sonu və XX əsrin əvvəlləri). Naxçıvan, 205 s.
8. İbrahim və Lentroş. (1930). İkinci buraxılış münasibəti ilə. “Qızıl şəfəq” qəzeti, № 58.
9. İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 29 dekabr, 2021-ci il.
10. Məmmədov İ. (2002). Tariximiz, torpağımız, taleyimiz. Bakı, 639 s., s. 43.